azərsu

“AZƏRSU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

BÜLLETEN

№ 06 (53) ● Sentyabr-Oktyabr 2017-ci il

www.azersu.az

Qaynar xətt - 955

“Su həyat deməkdir, təmiz su isə sağlam həyat deməkdir”

İlham Əliyev

Tarixi İpək Yolunun polad magistralı Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi

səh. 2

Qobustan, Şamaxı və Cəlilabad şəhərlərində açılış mərasimləri keçirilib

səh. 3, 4, 5

2017-ci ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclas keçirilib

səh. 8-10

Bakıətrafı qəsəbələrdə yeni su və kanalizasiya layihələrinin icrasına başlanılıb

səh. 13

Tarixi İpək Yolunun polad magistralı Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi

Oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Qazaxıstan Respublikasının Baş naziri Bakıtjan Saqintayev, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, həmçinin Tacikistan və Türkmənistan respublikalarından nümayəndə heyətləri mərasimdə iştirak ediblər.

Tədbirdə Prezident İlham Əliyev çıxış edərək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tarixi və qlobal layihə olduğunu diqqətə çatdırıb: *"Bu layihə ölkələri bir-birinə daha yaxın edəcək. Bu layihə bölgədə sabitliyin, təhlükəsizliyin təminatı işində öz rolunu oynayacaq. Bu layihə bizim iqtisadi imkanlarımızı artıracaq və biz böyük vəsait əldə edəcəyik. Əlbəttə, bir daha demək istəyirəm ki, bu layihənin həyata keçirilməsi ancaq Azərbaycan, Gürcüstan və Türkiyənin birgə səyləri hesabına mümkün olmuşdur. Biz heç bir yerdən heç bir yardım, heç bir kredit almadıq, öz daxili imkanlarımız hesabına bu yolu tikdik və bu gün istifadəyə veririk".*

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili, Qazaxıstanın Baş naziri Bakıtjan Saqintayev, Özbəkistanın Baş naziri Abdulla Aripov çıxış edib, Türkiyənin Baş naziri Binəli Yıldırımın təbrik məktubu oxunub.

Çıxışlardan sonra Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi ilə bağlı videoçarx nümayiş olunub. Dövlət və hökumət başçıları Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çivlərini vurublar və yoldəyişən qurğunu işə salıblar. Bununla da Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə hərəkət edən ilk yük qatarı yola salınıb. Sonda dövlət və hökumət başçıları qatarla açılış mərasiminin keçirildiyi Ələt limanından Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Ələt dəmir yolu stansiyasına yola düşüblər.

Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır.

Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə dair Saziş 2007-ci ildə Tbilisidə imzalanıb. Elə həmin ilin noyabrında Gürcüstanın Marabda məntəqəsində dəmir yolu xəttinin təməli qoyulub. 2008-ci ilin iyulunda isə Qars şəhərində Qars-Gürcüstan sərhədi hissəsinin tikintisinin təməlqoyma mərasimi keçirilib. Ümumi uzunluğu 846 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstandan keçir. Yolun 79 kilometri isə Türkiyə ərazisindədir.

Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdıracaq. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yoluna cəlb edilməsi hər iki istiqamətdə multimodal daşımaların həcmini artıracaq. Belə ki, üçüncü istismar ilində 3-5 milyon ton, beşinci istismar ilində 6-8 milyon ton yük, bundan sonra isə ildə 3 milyon sərnişin və 17 milyon ton yük daşınacağı nəzərdə tutulur. Bu, onu göstərir ki, Azərbaycan ilə yanaşı, Gürcüstan və Türkiyə də tranzit daşımalarından yüksək gəlir əldə edəcək. Bütün bunlar Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətini, onun təhlükəsizliyini, etibarlılığını, sürət və vaxt tezliyini aydın göstərir. Bu yol istifadəyə veriləndən sonra mövcud yükdaşımalarla müqayisədə zaman fərqinin iki dəfəyədək azalması müşahidə olunacaq ki, bu da layihənin iqtisadi səmərəsini daha da artırır.

Bakı-Tbilisi-Qars dəmir yolunun digər önəmli cəhəti isə Azərbaycanın bu layihənin verdiyi imkanlardan istifadə edərək Türkiyə ilə Gürcüstan ərazisindən birbaşa dəmir yolu əlaqəsi qurmasıdır. Bu dəmir yolu regionda turizmin inkişafına da güclü təsir göstərəcək. Beləliklə, öz əhəmiyyətinə görə qlobal səciyyə daşıyan Bakı-Tbilisi-Qars dəmir yolu iki qitəni polad relslərlə birləşdirərək böyük sosial-iqtisadi səmərəyə zəmin yaradır. Ən əsası isə bu dəmir yolunun işə düşməsi regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa ən böyük töhfədir. Bu töhfənin təməlində Azərbaycan, Gürcüstan və Türkiyənin sarsılmaz dostluğu və qardaşlığı dayanır.

Qobustan şəhərində su və kanalizasiya layihəsinin icrası yekunlaşıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də "Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin yekunlaşması ilə bağlı təşkil olunan mərasimdə iştirak edib.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına layihə barədə məlumat verərək bildirib ki, Qobustanın içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində həyata keçirilib. Layihə 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Qobustan şəhərində 11700 nəfərin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində rayonun Təsi, Bədəlli, Sədəfli, Dərəkənd, Cəmcəmli, Ərəbqədim və Göydərə kəndlərinə suyun verilməsi təmin edilib. İcrasına 2015-ci ildə başlanan layihə çərçivəsində rayonun Təsi kəndinin yaxınlığında ümumi məhsuldarlığı saniyədə 87 litr olan 6 subartezian quyusu qazılıb, Daşarası və Nərimankənd kəndlərinin ərazisində 2 su anbarı inşa edilib. Eyni zamanda, 14,4 kilometr uzunluğunda magistral kəmər çəkilib, mürəkkəb relyef şəraiti nəzərə alınmaqla suyun şəhərə çatdırılması üçün üçpilləli nasos sistemi quraşdırılıb. Əhaliyə verilən içməli suyun keyfiyyət göstəricilərinin uzunmüddətli dövr üçün standartlara uyğunluğunu təmin etmək məqsədilə su mənbəyində məhsuldarlığı sutkada 3800 kubmetr olan əks osmos tipli təmizləyici qurğunun inşası yekunlaşmaq üzrədir.

Qeyd olunub ki, layihə çərçivəsində Qobustan şəhərində 68 kilometrlik içməli su şəbəkəsi yaradılıb, 1900 ünvana birləşmə verilib, bütün abunəçilər sayğacla təmin edilib. Artıq bütün şəhər əhalisi yeni şəbəkə vasitəsilə keyfiyyətli və dayanıqlı su ilə təmin olunur. Layihəyə uyğun olaraq Qobustan şəhərində ilk dəfə kanalizasiya şəbəkəsi yaradılıb, 42 kilometr uzunluğunda kanalizasiya xəttinin və 1160 baxış quyusunun inşası yekunlaşıb və hər bir evə birləşmə verilib. Şəhərdə yaranan tullantı sularının toplanıb təmizləyici qurğuya ötürülməsi üçün 7 kilometrlik kanalizasiya kollektoru da tikilib. Tullantı sularının zərərsizləşdirilməsi üçün məhsuldarlığı sutkada 2500 kubmetr olan təmizləyici qurğunun inşası üzrə keçirilən tender prosedurları son mərhələdədir və qarşıdakı aylarda tikinti-quraşdırma işlərinə başlanılacaq.

Bildirilib ki, layihə çərçivəsində Qobustan Sukanal İdarəsi üçün yeni inzibati bina da inşa edilib. Burada işçi otaqları, informasiya-texnologiyaları otağı, iclas zalı yaradılıb. Bir sözlə, burada müştərilərə yüksək səviyyədə xidmət göstərmək üçün hərtərəfli şərait var. İnzibati binanın həyətində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Qeyd olunub ki, yeni layihənin icrasına qədər Qobustan şəhərində 1950-ci illərdə yaradılmış su təchizatı sistemlərindən istifadə olunurdu. Şəhərə içməli su Xaltava və Təsi kəndləri ərazisində yerləşən subartezian quyularından verilirdi. Əvvəllər mövcud olmuş 42 kilometrlik su şəbəkəsi şəhəri tam əhatə etmir və istismar tələblərinə cavab vermirdi. "Azərsu" ASC 8500 nəfər əhalisi olan Qobustan şəhərinin təqribən 20 faizinə xidmət göstərə bilirdi. İçməli su həftənin 3 günü olmaqla cəmi 1-2 saatlıq qrafiklə verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Qobustan şəhərində kanalizasiya sistemi isə yeni layihə icra ediləndək ümumiyyətlə mövcud olmayıb.

Dövlət başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı Qobustan şəhərinin içməli su probleminin həllini əlamətdar hadisə kimi dəyərləndirərək bu münasibətlə sakinləri təbrik edib: *"Bu, çox əlamətdar hadisədir, tarixi hadisədir. Çünki içməli su problemi həmişə burada insanları çox ciddi narahat edirdi. İndi isə bu problem birdəfəlik həll olunub. Artıq şəhər sakinləri və bir neçə kəndin əhalisi təmiz, keyfiyyətli, dayanıqlı içməli su ilə təmin olunurlar. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu, böyük layihədir, böyük sosial təşəbbüsdür, böyük vəsait tələb edən məsələdir. Biz bu vəsaiti təşkil etdik, dövlət büdcəsində vəsait nəzərdə tutuldu ki, bu məsələ də öz həllini tapsın. Çünki içməli su insanın sağlamlığına çox ciddi təsir edən amildir. Təmiz içməli su insanın sağlamlığını daha da yaxşılaşdırır.*

İçməli su layihələri ölkəmizdə geniş vüsət alıb. İndi bir çox şəhərlərimizdə artıq bu layihələr başa çatıb, bəzi şəhərlərdə davam edir. Qarşıya məqsəd qoyulmuşdur ki, bütün şəhərlərimizdə və əksər kəndlərdə bu məsələ öz həllini tapsın və biz bu istiqamətdə çox ciddi addımlar atırıq".

Sonra Prezident İlham Əliyev Qobustan şəhərinə içməli suyun verilməsini bildirən düyməni işə salıb.

Prezident İlham Əliyev Şamaxı şəhərinin su və kanalizasiya layihəsinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Şamaxı şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına "Şamaxı şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi üzrə görülən işlər barədə məlumat verib.

Bildirilib ki, layihə Azərbaycan Hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi "Milli su təchizatı və kanalizasiya xidmətləri layihəsi" çərçivəsində həyata keçirilib. Bu layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Şamaxı şəhərində 41 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihənin icrasına 2010-cu ildə başlanılıb. Birinci mərhələdə Şamaxı şəhərini keyfiyyətli və dayanıqlı su ilə təmin etmək üçün Pirsaatçayın məcrasında məhsuldarlığı saniyədə 120 litr olan drenaj tipli suqəbuledici qurğu, xlorlaşdırma binası, həcmi min kubmetr olan iki su anbarı, bir su nasos stansiyası tikilib. Su mənbəyindən anbarlara qədər 3,4 kilometr magistral kəmər çəkilib. Bu mərhələ üzrə işlər 2011-ci ildə yekunlaşıb.

Layihənin 2012-ci ildə başlanan ikinci mərhələsində ümumi tutumu 7 min kubmetr olan 4 anbar inşa edilib. Şəhərdə 8,9 kilometr uzunluğunda magistral su kəməri, 134 kilometrlik içməli su şəbəkəsi yaradılıb. Layihədə nəzərdə tutulan 8300 ünvana birləşmə verilib və sayğaclar quraşdırılıb. Bununla da abonentlərə yeni şəbəkə vasitəsilə suyun verilməsi təmin edilib.

Qeyd edilib ki, layihəyə uyğun olaraq Şamaxı şəhərində 130 kilometr uzunluğunda kanalizasiya şəbəkəsinin və baxış quyularının inşası yekunlaşıb. Şəhərdə yaranan tullantı sularının toplanıb təmizləyici qurğuya ötürülməsi üçün kanalizasiya nasos stansiyası inşa edilib, 11 kilometr uzunluğunda kanalizasiya kollektoru tikilib.

Layihənin sonuncu mərhələsində isə məhsuldarlığı sutkada 10 min kubmetr olan bioloji tipli tullantı sutəmizləyici qurğu inşa edilərək istismara verilib. Qurğunun inşası və bütövlükdə layihə Şamaxı şəhərində əhalinin artımı, sənayenin və turizmin inkişafı perspektivi nəzərə alınmaqla həyata keçirilib. Bundan başqa, layihə çərçivəsində Şamaxı Su-Kanal İdarəsi üçün yeni inzibati bina da inşa edilib. İkimərtəbəli binada işçilərin fəaliyyəti və müştərilərin qəbulu üçün yüksək şərait yaradılıb. Ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Bildirilib ki, perspektivdə Şamaxı şəhərinin böyüməsi, turizmin inkişafı nəzərə alınaraq şəhərin sabit və etibarlı su təchizatının aparılması üçün alternativ su mənbəyinin yaradılması da nəzərə alınıb. Bu məqsədlə artıq Ağsuçayın məcrasında suqəbuledici qurğunun, nasos stansiyasının və buradan Şamaxı şəhərinə qədər 22 kilometr uzunluğunda magistral kəmərin inşasına başlanılıb. Yeni mənbədən magistral kəmər boyunca yerləşən kəndlərə suyun verilməsi də nəzərdə tutulur.

Qeyd edək ki, Azərbaycan Hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi "Milli su təchizatı və kanalizasiya xidmətləri layihəsi" çərçivəsində Şamaxı şəhəri ilə yanaşı, Qəbələ, Sabirabad və Saatlı şəhərlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması da nəzərdə tutulub. Sabirabad və Saatlı şəhərlərində su təchizatı sistemlərinin tikintisi başa çatıb, bu şəhərlərə magistral su kəmərindən suyun verilməsi təmin edilib. Qəbələ şəhərində su mənbəyində işlər tam yekunlaşıb, içməli su və kanalizasiya şəbəkələrinin, həmçinin tullantı sutəmizləyici qurğunun inşası davam etdirilir. Ümumilikdə, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq 47 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. İndiyədək bu şəhərlərin 23-də su və kanalizasiya şəbəkələrinin, 9-da isə su şəbəkəsinin inşası yekunlaşıb.

Prezident İlham Əliyev Şamaxı şəhərinə içməli suyun verilməsini bildirən düyməni işə saldı.

Sonda xatirə şəkli çəkdirildi.

Cəlilabad şəhərində su təchizatı və kanalizasiya şəbəkəsi istifadəyə verilib

Sentyabrın 2-də Prezident İlham Əliyev Cəlilabad rayonuna səfəri çərçivəsində şəhərin içməli su təchizatı sisteminin və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi mərasimində iştirak edib.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə "Cəlilabad şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və kanalizasiya infrastrukturunun yaradılması" layihəsi barədə dövlət başçısına məlumat verib.

Bildirilib ki, bu layihə "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sifarişi əsasında Dünya Bankı ilə birgə maliyyələşdirilən "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi" çərçivəsində həyata keçirilir. Layihə çərçivəsində Cəlilabad şəhərinin 2030-cu il üçün proqnozlaşdırılan 77 min nəfər əhalisini ekoloji təmiz içməli su ilə təmin etmək məqsədilə 11035 evin su təchizatı və kanalizasiya şəbəkəsinə qoşulması nəzərdə tutulub. Layihə çərçivəsində tikinti işlərinə 2012-ci ildə başlanıb və 2018-ci ilin birinci rübünə tam başa çatdırılması planlaşdırılır. Masallı rayonu ərazisində inşa olunmuş su anbarından suyun Cəlilabad şəhərində hər birinin tutumu 5 min kubmetr olan 2 su anbarına öz axını ilə verilməsi üçün ümumi uzunluğu 30048 metr olan magistral boru xətti çəkilib, ümumi uzunluğu 230225 metr olan müxtəlif diametrli borulardan içməli su şəbəkəsi yaradılıb, evlər su sayğacları ilə təmin edilib.

Qeyd olunub ki, tullantı sularının nəqli üçün diametri 1000 millimetr və uzunluğu 6905 metr olan kanalizasiya kollektor xətti, uzunluğu 1734 metr olan müxtəlif diametrli təzyiqli tullantı su xətti və 186383 metr uzunluğunda tullantı su şəbəkəsi çəkilib. Kanalizasiya şəbəkəsi üzərində 4371 baxış quyusu inşa edilib, evlər bu şəbəkəyə qoşulub. Layihə üzrə 5 kanalizasiya nasos stansiyasının ikisində işlər tam yekunlaşdırılıb, üçündə isə inşaat işləri başa çatdırılaraq mexaniki və elektromexaniki işlər davam etdirilir. Hazırda gündəlik gücü 11356 kubmetr olan tullantı su təmizləyici qurğuda inşaat işləri davam etdirilir.

Mərasimində çıxış edən Prezident İlham Əliyev uzun illər ərzində su probleminin Cəlilabad sakinlərini çox narahat etməsindən, burada suyun fasilələrlə, gündə cəmi bir neçə saat verilməsindən, hətta bəzən günlərlə içməli suyun olmamasından xəbərdar olduğunu diqqətə çatdırıb. Bu məsələnin birdəfəlik həllini tapdığını vurğulayan ölkə Prezidenti artıq Cəlilabad şəhərinə 24 saat ərzində keyfiyyətli, Dünya Səhiyyə Təşkilatının standartlarına tam uyğun içməli su verildiyini bildirib. Bunu çox böyük tarixi hadisə kimi səciyyələndirən dövlət başçısı deyib: *"Mən bunu həmişə qeyd edirəm, bu layihənin icrası onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Çünki bu, sırf sosial layihədir. Bu layihə çox böyük vəsait tələb edirdi və Azərbaycan dövləti bu vəsaiti ayırdı ki, Cəlilabad sakinləri təmiz, keyfiyyətli içməli su ilə təmin olunsunlar. Bu layihənin icrası ölkəmizin inkişafını göstərir. Göstərir ki, bu gün də Azərbaycan uğurla inkişaf edir, sosial-iqtisadi layihələrə böyük vəsait ayrılır. Bizim kifayət qədər böyük maliyyə imkanlarımız var. Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır və ölkə qarşısında duran bütün vəzifələrin icrası üçün ardıcıl siyasət aparılır".*

Bütövlükdə isə hazırda ölkəmizdə içməli su layihələrinin icrasının geniş vüsət aldığını vurğulayan Prezident İlham Əliyev hər bir şəhərin içməli su məsələsinin öz həllini tapmasının qarşıya mühüm vəzifə kimi qoyulduğunu bildirib. Artıq bu məqsədə çatmaq istiqmətində mühüm tədbirlərin həyata keçirildiyini söyləyən dövlət başçısı eyni zamanda, kənd və qəsəbələrdə də bu məsələlərin tədricən öz həllini tapdığını diqqətə çatdırıb: *"Biz müxtəlif imkanlardan istifadə edirik. Həm çay boyu kəndlərdə təmizləyici qurğular quraşdırılır, eyni zamanda, magistral su xətləri çəkilir. Bir sözlə, içməli su problemi Azərbaycanda əsaslı şəkildə öz həllini tapır və tapacaqdır. Deyə bilərəm ki, bu da insan sağlamlığına ən çox müsbət təsir edən amildir. Çünki su həyatdır, təmiz su sağlam həyat deməkdir. Azərbaycan vətəndaşları sağlam olmalıdırlar. Azərbaycan dövləti bu məqsədə çatmaq üçün bir çox tədbirlər görür".*

Prezident İlham Əliyev Cəlilabad şəhərinə içməli suyun verilməsini bildirən düyməni işə salıb.

Su təchizatı, kanalizasiya, suvarma və sayğaclaşma layihələrinin davam etdirilməsi ilə bağlı sərəncamlar imzalanıb

Hazırda davamlı və yüksək iqtisadi artıma, sosial rifaha nail olunması Azərbaycan Respublikasında həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının başlıca məqsədlərindəndir. Bu məqsədə nail olmaq üçün ölkə vətəndaşlarının gündəlik rahat həyatını təmin edə bilən infrastrukturun yaradılması, o cümlədən əhaliyə keyfiyyətli xidmətlər göstərilməsi istiqamətində genişmiqyaslı işlər görülür. Bu baxımdan əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması, kanalizasiya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi sahəsində həyata keçirilən tədbirlər diqqəti cəlb edir.

Prezident İlham Əliyev Bakı şəhəri Binəqədi rayonunun 28 May qəsəbəsində, Abşeron rayonunun Pirəkəşkül və Qobustan kəndlərində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, 28 May qəsəbəsində 5,7 km paylayıcı su şəbəkəsi, Pirəkəşkül kəndində 4,3 km magistral, 5,7 km olan paylayıcı su şəbəkəsi, Qobustan kəndində 2,8 km magistral və 7,1 km paylayıcı su şəbəkəsi tikiləcəkdir. Bu işlərin həyata keçirilməsi üçün dövlət büdcəsindən "Azərsu" ASC-yə 3,54 milyon manat ayrılıb.

Dövlət başçısı Lənkəran şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında da Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Lənkəran şəhərində su təchizatı və kanalizasiya xidmətlərinin yaxşılaşdırılması, əhalinin içməli su ilə fasiləsiz təmin olunması məqsədilə həyata keçirilən şəhərin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin növbəti mərhələsində diametri 110 mm, uzunluğu 11 km olan paylayıcı su şəbəkəsinin, habelə görülmüş işlər nəticəsində sökülmüş 13 min kvadratmetr asfalt örtüyünün bərpası zərurəti yaranıb. Sərəncama əsasən, Lənkəran şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində həyata keçirilən işlərin davam etdirilməsi məqsədilə dövlət büdcəsindən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 2,1 milyon manat ayrılıb.

Prezident İlham Əliyev istehlakçıların suölçən cihazlarla təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında da sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası regionlarının davamlı inkişafı, əhalinin sağlamlığının qorunması və layiqli həyat səviyyəsinin təmin edilməsi istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilir. Bu baxımdan əhaliyə verilən içməli suyun keyfiyyətinin yaxşılaşdırılması daim dövlətin prioritetləri sırasındadır və bu sahədə müntəzəm işlər

görülməkdədir. Son illər qəbul olunmuş dövlət proqramlarının uğurla icrası nəticəsində regionların içməli su təchizatı və kanalizasiya infrastrukturu müasir tələblərə uyğun olaraq yenidən qurulmuş, sakinlərin içməli su ilə fasiləsiz təminatı sahəsində mühüm nailiyyətlər əldə edilib.

İstehlakçılara göstərilən xidmətlərin keyfiyyətini artırmaq, əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunmasının başlıca meyarlarından biri olan dövlət standartlarına uyğun keyfiyyətli içməli suyun fasiləsizliyini təmin etmək, habelə istehlak edilən suyun uçotunu dəqiq aparmaq və itkilərin qarşısını almaq məqsədilə müvafiq suölçən cihazların quraşdırılması başlıca şərtdir.

Sərəncama əsasən, əhali qrupu istehlakçılarının suölçən cihazlarla təmin edilməsi "Azərsu" ASC-yə 15 milyon manat ayrılıb.

Prezident İlham Əliyev Hacıqabul, Şamaxı və Zərdab rayonlarında ərazilərin suvarma suyu ilə təminatı layihələrinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində kənd təsərrüfatı sahəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilib, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşıb. İstehsalın stimullaşdırılması məqsədilə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilməsi kənd təsərrüfatı istehsalı sahəsində ilbəil dinamik inkişafın əldə edilməsini təmin edən amillərdən olub. Bu tədbirlər çərçivəsində Hacıqabul və Şamaxı rayonlarında 10 min hektar və Zərdab rayonunda 10 min hektar ərazinin suvarma suyu ilə təminatı layihəsinin icrasına başlanılıb.

Sərəncama əsasən, Hacıqabul, Şamaxı və Zərdab rayonlarında ərazilərin suvarma suyu ilə təminatı üçün başlanılmış layihələrin davam etdirilməsinə dövlət dəstəyini təmin etmək məqsədilə "Azərsu" ASC-yə 8 milyon manat ayrılıb.

Yeni Azərbaycan Partiyası: Uğurlarla zəngin 25 il

Oktyabrın 4-də "Azərsu" Açıq Səhmdar Cəmiyyətində müstəqil Azərbaycanın ictimai-siyasi həyatında tarixi xidmətləri olan Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan **YAP "Azərsu" ASC üzrə ərazi ilk partiya təşkilatının sədri Heydər Abbasov** partiyanın yaranma tarixindən və keçdiyi inkişaf yolundan danışıb. Qeyd olunub ki, xalqa, vətənə, dövlətçiliyə xidmət edən Yeni Azərbaycan Partiyası ümummilli lider Heydər Əliyev ideyalarına əsaslanaraq ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edib, dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafa töhfələr verib: *"Yeni Azərbaycan Partiyası iqtidarda olduğu müddətdə Azərbaycanın siyasi və iqtisadi müstəqilliyi daha da möhkəmlənib, ölkəmizin beynəlxalq aləmdə mövqeyi güclənib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb, Azərbaycan regionun lider dövlətinə çevrilib. Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi əhalinin sosial şəraitinin yaxşılaşmasına səbəb olub. Bu sahədə işlərin məntiqi davamı olaraq paytaxt və bölgələrdə su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri uğurla həyata keçirilməkdədir".*

Tədbirdə çıxış edən **YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov** bildirib ki, Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyi müstəqil Azərbaycanın tarixində əhəmiyyətli hadisədir. Ümummilli lider Heydər Əliyev ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanda dinamik inkişaf təmin olunub: *"Ulu öndər Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğunda siyasi partiyanın rolunu uzaqgörənliklə qiymətləndirərək 1992-ci il noyabrın 21-də yaradılmış Yeni Azərbaycan Partiyasının sədri olmaq məsuliyyətini üzərinə götürmüşdür. Yeni Azərbaycan Partiyasının yarandığı gündən öz siyasi xəttinə sadiqliyi, xalq, dövlət qarşısında xidmətləri, ölkəmizin bir-birini əvəzləyən uğurları onun cəmiyyətdəki mövqeyini daha da möhkəmləndirmiş, ümumxalq partiyası olduğunu təsdiqləmişdir. Birmənalı şəkildə demək olar ki, Azərbaycan xalqı ümummilli liderin siyasi kursuna sədaqətini daim nümayiş etdirir və bu siyasətin alternativi olmadığını qəbul edir".*

Tədbirdə YAP üzvlüyünə qəbul üçün bir qrup əməkdaşın müraciətinə baxılıb, partiya üzvlüyünə qəbul olunmuş əməkdaşlara vəsiqələr təqdim edilib. Qeyd olunub ki, sıralarını daim genişləndirən Yeni Azərbaycan Partiyası avanqard siyasi qüvvə kimi ölkəmizin qüdrətlənməsi və xalqımızın rifahının daha da yaxşılaşdırılmasına bundan sonra da töhfələr verəcəkdir.

2017-ci ilin 9 ayının yekunlarına və qarşıda

İclası giriş sözü ilə açan "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov bildirib ki, 2017-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanda dinamik inkişaf təmin olunub, ölkəmiz bir sıra nüfuzlu beynəlxalq tədbirlərə və idman yarışlarına ev sahibliyi edib. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq 2017-ci ilin ötən dövründə sosial və infrastruktur layihələrinin icrası uğurla davam etdirilib.

"Azərsu" ASC-nin sədri 2017-ci ilin yanvar-sentyabr aylarında içməli su təchizatı və kanalizasiya sektorunda mühüm hadisələrin baş verdiyini diqqətə çatdırıb. *"2017-ci ilin ötən dövründə Gədəbəy şəhərində su və kanalizasiya, Saatlı şəhəri və Pirallahı qəsəbəsində isə içməli su layihələrinin açılış mərasimləri keçirilib. Ötən dövrdə Xırdalan şəhərində su təchizatı və kanalizasiya infrastrukturlarının yenidən qurulmasına, Gəncə və Şəki şəhərlərində layihənin növbəti mərhələsi üzrə işlərə, həmçinin Pirşağı tullantı sutəmizləyici qurğusunun tikintisinə başlanılıb. Əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə 22 rayonun 170 yaşayış məntəqəsində layihələrin icrasına başlanılıb və 100-dən artıq kənddə işlər yekunlaşıb. Bakı şəhərinin yağış sularının yığılma təhlükəsi olan ərazilərində səth sularının kənarlaşdırılması üzrə 13 layihənin icrasına başlanılıb və bu sahədə işlər yekunlaşmaq üzrədir".*

Hesabat dövründə Prezident İlham Əliyevin Mingəçevir Salyan, Biləsuvar, Qax şəhərlərində, Binəqədi, Mehdiabad, Novxanı, Binə, Mərdəkan, Şağan, Şüvəlan, 28 May, Qobustan və Pirəkəşkül qəsəbələrində , eləcə də paytaxtın "Ağ şəhər" adlanan ərazisində layihələrin icrasının davam etdirilməsi ilə bağlı sərəncamlarına uyğun olaraq işlərə başlanılıb. Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə Zərdab rayonunda icra olunan layihə yekunlaşıb, Hacıqabul və Şamaxı rayonlarında isə layihənin icrası tamamlanmaq üzrədir.

Qeyd olunub ki, 2017-ci ilin yanvar-sentyabr aylarında "Azərsu" ASC tərəfindən istehlakçılara 191 milyon kubmetr su verilib. Hesabat dövründə 800 km-dən çox içməli su və kanalizasiya xətləri tikilib, 6 subartezian quyusu qazılıb. Görülmüş işlər nəticəsində 90 min nəfər ilk dəfə mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin edilib, 152 min nəfərin su təchizatı yaxşılaşdırılıb. Bununla da fasiləsiz su təchizatı səviyyəsi ölkə üzrə 66,3 faizə, Bakı şəhəri üzrə isə 81,1 faizə yüksəlib.

"Azərsu" ASC-nin sədri 9 ayda su təsərrüfatı sektorunda digər əlamətdar hadisələrin də baş verdiyini diqqətə çatdırıb. 14-18 mart 2017-ci il tarixlərində I Bakı Beynəlxalq Su Həftəsi və Şollar-Bakı Su Qurğuları Kompleksinin 100 illik yubiley tədbirləri keçirilib. "Azərsu" ASC Beynəlxalq Su Resursları Assosiasiyasının üzvü seçilib və bu təşkilat 2021-ci ildə Dünya Su Konqresinin Bakı şəhərində keçirilməsi təklifini dəstəkləyib. Səhmdar Cəmiyyət Beynəlxalq Biznes Təşəbbüsləri Təşkilatının liderlik, keyfiyyət, innovasiya və mükəmməllik sahəsində Qızıl Mükafatına layiq görülüb.

Sonra **"Azərsu" ASC-nin sədr müavini İlqar Tağıyev** çıxış edərək bildirib ki, 2017-ci ilin 9 ayı ərzində mal və materialların satınalınması üçün 21 mln manat dəyərində 71 müqavilə imzalanıb. İmzalanmış müqavilələrin icrası ilə əlaqədar malların qəbulu zamanı keyfiyyətə xüsusi diqqət yetirilir.

"Azərsu" ASC-nin tabeliyindəki idarə və müəssisələrin anbarlarında olan mal-materialların inventarizasiyasının aparılması məqsədilə mütəxəssislərdən ibarət komissiya yaradılıb. Komissiya bütün idarələrin və struktur bölmələrinin anbar təsərrufatının vəziyyətini yoxlayıb. İnventarizasiya nəticəsində rayon sukanal idarələrinin anbarında olan yararlı, lakın uzun zaman hərəkətsiz qalan mal və materiallar onlara ehtiyac duyulan istiqamətlərə yönəldilib.

duran vəzifələrə həsr olunmuş iclas keçirilib

2018-ci ilin material tələbatı dəfələrlə müzakirə olunaraq dürüstləşdirilib, 6055 adda müxtəlif material və avadanlıqların siyahısı tədarük edilməsi üçün Satınalmalar departamentinə təqdim olunub.

Bakı şəhəri və regionlar üzrə su kanalizasiya sistemlərinin yenidən qurulması layihələri çərçivəsində istismardan çıxarılmış su xəttlərinin demontaj olunması, daşınması, istismara yararlılığının qiymətləndirilməsi və təhviltəslimi işi də yenidən qurulmaqdadır.

İnformasiya və kommunikasiya texnologiyaları departamentinin rəisi Emil Əhmədov qeyd edib ki, Səhmdar Cəmiyyətdə İnformasiya və kommunikasiya texnologiyaları strategiyasının düzgün və operativ şəkildə tətbiq edilməsi və strategiyanın əsas layihələrindən olan coğrafi informasiya sistemlərinin və işçi qüvvəsinin idarəedilməsinin təkmilləşdirilməsi, suyun keyfiyyətinin idarə olunması, müştərilərlə əlaqənin inkişaf etdirilməsi, sistemlərarası inteqrasiyanın genişləndirilməsi, "smart" həllərin tətbiqi istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi davam etdirilməkdədir.

2017-ilin 9 ayı ərzində Coğrafi informasiya sisteminə 2500 km içməli və tullantı su şəbəkəsi, 900 ədəd içməli və tullantı suya aid qurğu və qurğu kompleksləri, 84000 qəza məlumatı daxil edilib.

"ASAN Kommunal" mərkəzlərinin yaradılması ilə bağlı mövcud informasiya sistemlərinin qiymətləndirilməsi və inteqrasiyası istiqamətində zəruri tədbirlər həyata keçirilib, ASAN Kommunal 1 və ASAN Kommunal 2 mərkəzləri ilə Cəmiyyət arasında fiber optik kabel üzərindən şəbəkə və rabitə əlaqəsi tam olaraq təmin edilib.

Müştərilərlə əlaqənin inkişaf etdirilməsi məqsədilə cari ildə 4 yeni elektron xidmət hazırlanaraq elektron hökumət portalında yerləşdirilib və beləliklə elektron xidmətlərin sayı 11-ə çatdırılıb.

2017-ci il ərzində Cəmiyyətin təqdim etdiyi elektron xidmətlərə 215 mindən çox müraciət qeydə alınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,7 dəfə çoxdur.

2017-2018-ci illərdə əməliyyat-dispetçer mərkəzinin yaradılması, internet üzərindən yeni elektron xidmətlərin aktivləşdirilməsi, MİS, CİS və elektron sənəd dövriyyəsi sisteminin tətbiq dairəsinin genişləndirilməsi, müştərilərlə əlaqənin inkişaf etdirilməsi, satış və ödəniş sisteminin təkmilləşdirilməsindən irəli gələn İKT məsələlərinin həll edilməsi, sistemlərarası inteqrasiyanın yaradılması və işlək vəziyyətə gətirilməsi, texniki dəstək sisteminin əhatə dairəsinin genişləndirilməsi, yeni smart həllərin tətbiqi prioritet istiqamət olaraq müəyyən edilib.

Müştəri xidmətləri departamentinin rəisi Əbülfəz Kərimzadə bildirib ki, 2017-ci ilin 9 ayında "Azərsu" ASC tərəfindən 1 403 211 abonentə su təchizatı və tullantı sularının axıdılması xidmətləri göstərilib. Ümumi abonentlər üzrə sayğaclaşma səviyyəsi 8,5 faiz artaraq 75,4 faiz təşkil edib.

2017-ci ilin yanvar-sentyabr aylarında şəbəkələrə verilən suyun həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 27 milyon kubmetr, satılan suyun həcmi 26 milyon kubmetr, şəbəkələr üzrə ümumi itki faizi 0,9 faiz azalıb.

Ötən müddətdə abonentlərə 145 milyon manat dəyərində su təchizatı

və tullantı sularının axıdılması xidmətləri göstərilib, 136 milyon manat ödəniş təmin olunub. Bu da ötən ilin müvafiq dövrünə görə satışda 6,5 milyon manat, ödənişdə isə 18,2 milyon manat artım deməkdir.

Hesabat dövründə Asan Xidmət və Asan Kommunal mərkəzlərinə 37 720 müraciət daxil olub və vətəndaşlara operativ xidmət göstərilib.

Abşeron yarımadasında əhali abonentləri üzrə MİS proqramının tətbiqi yekunlaşıb. Regionlarda 59 rayon Sukanal İdarəsinin 38-də bu proqram tətbiq olunub. Qeyri-əhali abonentləri üzrə Abşeron üzrə 15 sukanal idarəsindən 7-də proqramın tətbiqi həyata keçirilib.

Ə.Kərimzadə bildirib ki, satılan suyun ödənişinin təmin olunması ciddi nəzarətə götürülməli, debitor borc qrupları ilə işlər düzgün təşkil edilməlidir. Eyni zamanda xammal istifadəçiləri tərəfindən istifadə olunan suyun uçotu ciddi nəzarətə götürülməlidir.

"Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutunun direktoru Çingiz Qurbanov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, ötən dövrdə qruntların fiziki-mexaniki və kimyəvi tədqiqi, aqressivlik göstəricilərinin təyini, reagentlərin eksperimentləri, su nümunələrinin fiziki-kimyəvi tərkibinin və çöküntülərin tədqiqi üzrə 20556 təhlil aparılıb.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin sərəncamı ilə icrası müəyyən olunmuş yağış-kanalizasiya obyektləri, Zərdab rayonu ərazisində

yerləşən əkin torpaqlarının suvarılması üçün nasos stansiyasının və ötürücü su kəmərinin tikintisini aparmaq üçün İnstitut tərəfindən layihə-smeta sənədləri hazırlanıb.

Hacıqabul və Şamaxı rayonlarının Padarçöl sahəsində yerləşən əkin torpaqlarının suvarılması üçün ötürücü su kəmərinin və mühəndis qurğularının tikintisi üçün layihə sənədləri hazırlanıb.

Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq 28 rayonun 172 yaşayış məntəqəsində içməli su təchizatı sistemlərinin yaradılması üçün İnstitut tərəfindən layihə-axtarış işləri aparılır. Sərəncamda göstərilmiş rayonların kəndlərinin əksəriyyətinin layihə sənədləri İnstitut tərəfindən işlənib və aidiyyəti üzrə tikinti təşkilatlarına verilib. İlin sonuna qədər layihə işləri tam başa çatacaq.

Ötən dövrdə "Azərsu" ASC ilə Azərbaycan Memarlıq və İnşaat Universiteti arasında imzalanmış Memorandum uyğun olaraq "Sukanal" ETLİ-də universitetin "Mühəndis sistem və qurğularının tikintisi" kafedrasının filialı fəaliyyətə başlayıb.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov iclasa yekun vuraraq bildirib ki, ilin sonuna qədər Bakı şəhəri və Abşeron yarımadasının 10 yaşayış məntəqəsində və regionlarda 170 kənddə icra olunan layihələr yekunlaşdırılacaq. Həmçinin ilin sonunadək paytaxtın səth sularının yığılma təhlükəsi olan ərazilərində icra olunan layihələrin, Padarçöl ərazisində suvarma infrastrukturunun yaradılması işlərinin başa çatdırılması nəzərdə tutulur.

Səhmdar Cəmiyyətin sədri iqtisadi səmərəliliyin artırılması, abunəçilərlə işin təkmilləşdirilməsi, müştəri informasiya sisteminin əhatə dairəsinin genişləndirilməsi, sayğaclaşma işlərinin sürətləndirilməsi və digər məsələlərlə bağlı tapşırıqlar verib.

Almaniya İnkişaf Bankı Gəncə və Şəki şəhərlərində su və kanalizasiya layihəsinin icrasını yüksək qiymətləndirir

Sentyabrın 15-də Nazirlər Kabinetində Almaniyanın KfW Bankının (Almaniya İnkişaf Bankı) Azərbaycanda səfərdə olan nümayəndə heyəti ilə görüş keçirilib.

Baş nazirin müavini Abid Şərifov Azərbaycanda həyata keçirilən infrastruktur layihələri arasında içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrinin xüsusi əhəmiyyət daşıdığını bildirib. A.Şərifov qeyd edib ki, Azərbaycan hökuməti bu layihələrin həyata keçirilməsində beynəlxalq maliyyə qurumları, o cümlədən Almaniya İnkişaf Bankı ilə uğurlu əməkdaşlıq edir: *"Almaniya bankı ilə birgə maliyyələşdirilən "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi çərçivəsində Gəncə və Şəki şəhərlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işləri uğurla davam etdirilir. Bu layihələrin icrası nəticəsində 500 mindən çox Azərbaycan vətəndaşının içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsi yaxşılaşacaqdır. Bu əməkdaşlıq həm də ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsinə töhfələr verəcəkdir".*

Almaniya Federativ Respublikasının Azərbaycandakı səfiri Mixael Kindsqrab Azərbaycanla Almaniya arasında bütün sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini bildirib: *"Almaniya şirkətləri və maliyyə qurumları Azərbaycanda həyata keçirilən layihələrdə yaxından iştirak edir. Əhalinin rifah halının yaxşılaşdırılmasına hesablanmış içməli su və kanalizasiya layihələrinin icrasını yüksək dəyərləndiririk və ümid edirik ki, ölkə vətəndaşları bu layihələrdən faydalanacaqdır".*

KfW bankının Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə direktoru Olaf Zumeyka bankın Azərbaycan hökuməti ilə əməkdaşlığını yüksək qiymətləndirmiş və qeyd etmişdir ki, indiyədək bank infrastruktur layihələrində yaxından iştirak etmişdir və bundan sonra da bu missiyanı davam etdirməkdə maraqlıdır. O.Zumeyka "Açıq Kommunal İnfrastruktur Proqramı II" çərçivəsində Gəncə və Şəki şəhərlərində layihələrin icrasından razılığını bildirib, son vaxtlar hər iki şəhərdə tikinti-quraşdırma işlərinin sürətlə davam etdirilməsindən məmnun olduqlarını vurğulayıb.

"Azərsu" ASC-nin sədr müavini Etibar Məmmədov Şəki və Gəncə şəhərlərində su və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində işlərin uğurla davam etdiyini bildirib. Qeyd olunub ki, layihə üzrə işlər həm Gəncə, həm də Şəki şəhərlərində qrafikə uyğun həyata keçirilir: *"Gəncə şəhərlində su mənbələri, magistral kəmərlər üzrə işlər yekunlaşıb, hazırda içməli su və kanalizasiya şəbəkələrinin tikintisi davam etdirilir, eyni zamanda tullantı sutəmizləyici qurğusunun layihələndirilməsi işləri aparılır. Şəki şəhərində də layihənin birinci mərhələsi yekunlaşıb, hazırda şəbəkələrin və kanalizasiya kollektorunun tikintisi davam etdirilir".*

Görüşdə "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsinin icra vəziyyəti və gələcək əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparılıb.

Asiya İnkişaf Bankının nümayəndə heyəti ilə görüş keçirilib

"Azərsu" Açıq Səhmdar Cəmiyyətində Azərbaycanda səfərdə olan Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin Şəhər inkişafı və su şöbəsinin baş mütəxəssisi Lu Şenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

"Azərsu" ASC-nin sədr müavini Etibar Məmmədov Asiya İnkişaf Bankının ölkəmizdə su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrində iştirakını yüksək qiymətləndirib. E.Məmmədov "Su təchizatı və kanalizasiya investisiya proqramı" çərçivəsində görülmüş işlər barədə məlumat verərək bildirib ki, Göyçay və Beyləqan şəhərlərində şəbəkələrin tamamilə yenidən qurulması nəticəsində əhalinin içməli su və kanalizasiya xidmətlərindən istifadəsi yaxşılaşıb. Ağdaş şəhərində isə tikinti-quraşdırma işləri qrafikə uyğun davam etdirilib.

Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin Şəhər inkişafı və su şöbəsinin baş mütəxəssisi Lu Şen layihələrin icra vəziyyəti ilə tanış olmaq məqsədilə Ağdaş və Göyçay şəhərlərində olduğunu xatırladaraq tikinti-quraşdırma işlərinin gedişindən razılığını ifadə edib. Bank rəsmisi bildirib ki, təmsil etdiyi bank bundan sonra da Azərbaycanda içməli su və kanalizasiya infrastrukturlarının yenidən qurulması layihələrinin maliyyələşdirilməsində iştirak etməkdə maraqlıdır.

Görüşdə "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı"nın icrası və növbəti mərhələlərdə həyata keçiriləcək tədbirlər haqqında ətraflı müzakirələr aparılıb.

Padarçöl ərazisində suvarma layihəsinin icrası yekunlaşmaq üzrədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə ərzaq təhlükəsizliyinin və ixrac potensialının artırılmasının təmin edilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq Hacıqabul və Şamaxı rayonlarında, Padarçöl adlanan ərazidə 10 min hektar sahənin suvarma layihəsinin icrası yekunlaşmaq üzrədir.

"Azərsu" ASC-nin sifarişi ilə icra olunan layihəyə əsasən, əkin sahələrinin suvarılması Hacıqabul rayonunun Talış kəndi yaxınlığında yerləşən Kür sutəmizləyici qurğularının imkanları hesabına aparılacaqdır. Bu məqsədlə su mənbəyindən Padarçöl ərazisinə ümumi uzunluğu 27,5 km olan 2 ədəd magistral su xəttinin tikintisi layihələndirilib. 1400 mm diametrli polad borulardan ibarət xəttin artıq 26 km-lik hissəsi tikilib. İşlərin intensiv qaydada aparılması

məqsədilə tikinti-quraşdırma işləri bir neçə nöqtədə paralel olaraq həyata keçirilib. Magistral xəttin Bakı-Tbilisi dəmir yolu və Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolu ilə kəsişdiyi yerlərdə nəqliyyat vasitələrinin intensiv hərəkətini təmin etmək üçün avtomobil və dəmir yollarının yatağında xüsusi tunel-qazma maşınları vasitəsilə mikrotunellər inşa edilib. Magistral kəmərdə suyun tənzimlənməsi və idarə olunması məqsədilə 16 vantuz, 12 siyirtmə, 18 təxliyə xətti quraşdırılıb.

Bu kəmər vasitəsilə su Padarçöl ərazisində relyef baxımından yüksəklikdə yerləşən anbarlara vurulacaq. Hazırda anbar sahəsində hər birinin tutumu 25 min kubmetr olan 2 ədəd açıq tipli su anbarı inşa olunur. Magistral xəttə suyun vurulması məqsədilə hazırda Kür sutəmizləyici qurğular kompleksində mexaniki avadanlıqların istismar vəziyyətinin yoxlanması və enerji təchizatının yaxşılaşdırılması işləri də aparılır.

Qeyd edək ki, "Azərsu" ASC Hacıqabul və Şamaxı rayonları ilə yanaşı, Zərdab rayonunda da suvarma layihəsi həyata keçirib. Bu məqsədlə Kür çayının sahilində məhsuldarlığı saniyədə 3 kubmetr olan sugötürücü qurğu, nasos stansiyası, diametri 1400 mm olan 15 km magistral kəmər inşa edilib. Layihə üzrə işlər 2017-ci ilin iyun ayında başa çatdırılıb.

Bakıətrafı qəsəbələrdə yeni su və kanalizasiya layihələrinin icrasına başlanılıb

Bakı şəhəri və Abşeron rayonunun kənd və qəsəbələrində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələrinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına uyğun olaraq Bakıətrafı yaşayış məntəqələrində mühüm işlər görülür.

Bu layihələr Bakı şəhəri və Abşeron rayonunun bir sıra yaşayış məntəqələrində əhalinin mərkəzləşdirilmiş qaydada keyfiyyətli içməli su ilə təminatına imkan yaradacaq, onların kanalizasiya xidmətlərindən istifadəsini yaxşılaşdıracaqdır.

Sərəncamlara əsasən, 10 yaşayış məntəqəsində - Bakı şəhəri Binəqədi rayonunun Binəqədi və 28 May, Xəzər rayonunun Mərdəkan, Şağan, Şüvəlan və Binə qəsəbələrində, eləcə də Abşeron rayonunun Mehdiabad, Novxanı qəsəbələri, Pirəkəşkül və Qobustan kəndlərində yeni içməli su və kanalizasiya şəbəkələri yaradılacaqdır. Hazırda 7 kənd və qəsəbədə tikinti-quraşdırma işləri davam etdirilir, digər 3 qəsəbədə isə inşaat işlərinə yaxın vaxtlarda başlanılacaqdır.

Ümumilikdə 10 yaşayış məntəqəsində 70 km içməli su, 11 km kanalizasiya xətlərinin tikintisi nəzərdə tutulub. Qısa müddət ərzində kənd və qəsəbələrdə 26 km içməli su, 2 km kanalizasiya xətləri inşa edilib. Tikinti-quraşdırma işlərinin 2017-ci ilin sonuna qədər başa çatdırılması nəzərdə tutulub.

Kənd və qəsəbələrdə yeni su və kanalizasiya şəbəkələrinin yaradılması nəticəsində 37 min nəfərin içməli su təchizatı, 9 min nəfərin kanalizasiya xidmətlərindən istifadəsi əsaslı şəkildə yaxşılaşacaq. 3 km uzunluğunda Mərdəkan-Şağan-Şüvəlan magistral su xəttinin istismara verilməsi perspektivdə Mərdəkan, Şağan və Şüvəlan qəsəbələrində 54 min nəfərin içməli su təminatına imkan yaradacaqdır. Ümumilikdə bu layihələrdən 100 min nəfər sakin yararlanacaqdır.

Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən, Bakı şəhəri Binəqədi rayonunun Binəqədi və 28 May, Xəzər rayonunun Mərdəkan, Şağan, Şüvəlan və Binə qəsəbələrində, eləcə də Abşeron rayonunun Mehdiabad, Novxanı qəsəbələri, Pirəkəşkül və Qobustan kəndlərində görüləcək işlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ümumilikdə 13,32 milyon manat vəsait ayrılıb.

"Sukanal" ETLİ-də "Mühəndis sistem və qurğularının tikintisi" kafedrasının filialı açılıb

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti ilə Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) arasında imzalanmış "Təhsil, elm və təlim-tədris sahəsində əməkdaşlığa dair" Memoranduma uyğun olaraq Səhmdar Cəmiyyətin "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutunda (ETLİ) AzMİU-nun "Mühəndis sistem və qurğularının tikintisi" kafedrasının filialı fəaliyyətə başlayıb.

Bu münasibətlə keçirilən tədbirdə **"Azərsu" ASC-nin sədr müavini Seymur Seyidov** ölkəmizdə içməli su təchizatı və kanalizasiya infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən kompleks tədbirlər barədə məlumat verib. S.Seyidov bildirib ki, "Azərbaycan Respublikasında kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsi"ndə su sektoru, o cümlədən, içməli su təchizatı və tullantı sularının idarə edilməsinə xüsusi diqqət yetirilib. Su sektoru üçün strateji hədəf kimi "Yüksək səviyyəli su idarəetmə strukturunun yaradılması" və "Su təchizatında itkilərin azaldılması və səmərəliliyin təmin edilməsi" hədəfləri müəyyən olunub. Sənəddə kadr potensialının təkmilləşdirilməsi də prioritet məsələ kimi müəyyənləşdirilib.

Sədr müavini bildirib ki, elmi potensialın gücləndirilməsi, kadr hazırlığı və təcrübə mübadiləsinin genişləndirilməsi məqsədilə "Azərsu" ASC Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti ilə yanaşı, Memarlıq və İnşaat Universiteti ilə də sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində universitetdə müasir tələblərə cavab verən "Su təchizatının problemləri üzrə elmi-tədqiqat və tədris laboratoriyası" yaradılıb. AzMİU-nun tələbələri mütəmadi olaraq "Azərsu" ASC-də istehsalat təcrübəsi, "Yay məktəbi" və Təqaüd proqramlarının imkanlarından yararlanıb.

Sədr müavini bildirib ki, "Sukanal" ETLİ-nin yüksək ixtisaslı elmi kadrların hazırlanması sahəsində 50 ildən çox təcrübəsi var. Bu müddət ərzində institutda 11 elmlər doktoru və 40-dan çox fəlsəfə doktoru hazırlanıb.

AzMİU-nun prorektoru Akif Qasımov su təsərrüfatı sektoru üçün kadr hazırlığında universitetin xüsusi rolu olduğunu bildirib. O, qeyd edib ki, filialın yaradılmasında əsas məqsəd elm və təhsilin istehsalatla inteqrasiyasının gücləndirilməsidir. Filialın yaradılması tələbə, magistr və doktorantların praktiki bilik, bacarıq və vərdişlərinin formalaşdırılması, müxtəlif elm sahələrində elmi yeniliklərin və innovasiyaların tədris prosesinə tətbiqi, müvafiq ixtisas sahələri üzrə aparıcı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi və birgə elmi tədqiqatların aparılması baxımından da əhəmiyyətlidir.

Qeyd olunub ki, filialın yaradılması təhsil-elm-istehsalat əlaqələrinin genişləndirilməsi, tələbələrin təcrübi biliklərinin artırılması, kadr potensialının artırılması baxımından əhəmiyyətlidir. Tələbələr institutun fəaliyyət sahələri, mütəxəssislərin peşəkarlığına olan tələblər ilə yaxından tanış olacaq, laboratoriya və şöbələrdə məşğələ keçmək imkanı əldə edəcək. Eyni zamanda institutun elmi işçiləri tədris prosesinə cəlb olunacaq. Filialın yaradılması "Azərsu" ASC üçün kadrların hazırlanması baxımından da mühüm əhəmiyyət kəsb edir.

"Sukanal" ETLİ-də yaradılmış AzMİU-nun "Mühəndis sistem və qurğularının tikintisi" kafedrasının əsasnaməsi təsdiq edilib.

"ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərindəki "Azərsu" ASC-nin xidmət bölmələrinə edilən müraciətlərin sayı 38 minə çatıb

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində təmsil olunması istehlakçılara göstərilən müştəri xidmətlərinin asanlaşdırır və bu sahədə şəffaflığın artırılmasını təmin edir. 2017-ci ilin yanvar-sentyabr aylarında bu mərkəzlərdə "Azərsu" ASC-nin təqdim etdiyi xidmətlərdən istifadə genişlənib.

2017-ci ilin 9 ayında "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində fəaliyyət göstərən "Azərsu" ASC-nin xidmət bölmələrinə abunəçilər tərəfindən müxtəlif məsələlərlə bağlı ümumilikdə 37720 müraciət edilib. Müraciətlərin 20359-u "ASAN xidmət", 17361-i isə "ASAN Kommunal" mərkəzlərində qeydə alınıb. Ötən müddətdə edilən müraciətlər arasında smart kartlara yüklənmələr haqqında məlumatın verilməsi, texniki şərtin verilməsi, itirilmiş və zədələnmiş smart kartların bərpası, abonent məlumatlarına dəyişikliklərin edilməsi, borclar haqqında məlumatların verilməsi ilə bağlı müraciətlər üstünlük təşkil edib. Ən çox müraciət Sabunçu, Yasamal rayonlarındakı, eləcə də Sumqayıt və Gəncə şəhərlərindəki "ASAN xidmət" mərkəzlərində, həmçinin 2 saylı "ASAN Kommunal" mərkəzində qeydə alınıb.

Qeyd edək ki, "ASAN xidmət" mərkəzlərində "Azərsu" ASC-nin müştəri xidmətlərinin göstərilməsinə 2014-cü ilin may ayından başlanılıb. 2017-ci ildən "Azərsu" ASC "ASAN Kommunal" mərkəzlərində də təmsil olunur. Ümumilikdə 2014-cü ildən indiyədək bütün xidmət mərkəzlərinə vətəndaşlar tərəfindən müxtəlif məsələlərlə bağlı 91406 müraciət daxil olub.

Hazırda "Azərsu" ASC-nin xidmətləri Sabunçu rayonundakı 4 və Nizami rayonundakı 5 saylı, Sumqayıt, Gəncə, Sabirabad, Bərdə, Qəbələ və Masallı şəhərlərindəki "ASAN xidmət", həmçinin 1 və 2 saylı "ASAN Kommunal" mərkəzlərində təşkil olunub.

9 ayda 215 mindən çox elektron müraciət qeydə alınıb

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti istehlakçılara göstərilən müştəri xidmətlərinin asanlaşdırılması, bu sahədə şəffaflığın və operativliyin təmin edilməsi məqsədilə müasir informasiya texnologiyalarının tətbiqini davam etdirir.

Bu sahədə zəruri işlər aparılaraq "Əhali qrupu istehlakçılarına su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair son 12 ay üzrə faktura və ödəniş məlumatlarının verilməsi" elektron xidmətinin göstərilməsinə başlanılıb.

Bu xidmət vasitəsilə əhali qrupu istehlakçıları abonent koduna görə son 12 ay üzrə ödəniş və faktura məlumatlarını əldə etmək imkanı qazanır. Xidmətdən istifadə www.e-gov.az portalı və www.azersu.az saytı üzərindən həyata keçirilir. Xidmət tam avtomatlaşdırılıb və real vaxt rejimində icra olunur. Elektron xidmətin göstərilməsi üçün heç bir sənəd tələb olunmur.

Xidmət qeydiyyatlı olduğu üçün abonentlər ilk növbədə "Elektron hökumət" portalında təqdim edilən audentifikasiya vasitələrindən biri ilə qeydiyyatdan keçməlidirlər. Bundan sonra istifadəçi ona təqdim olunan elektron ünvanda açılan ekranda "Əhali qrupu istehlakçılarına su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair son 12 ay üzrə faktura və ödəniş məlumatlarının verilməsi" elektron xidmətini seçərək istifadə edə bilər.

Müraciət edən şəxs 13 rəqəmli abonent kodunu sistemə daxil etdikdən sonra şəxsi məlumatlarına baxış imkanı əldə edir. İstehlakçıya aşağıdakı şəxsi məlumatlar təqdim olunur:

- Abonentin adı, soyadı, ata adı;
- Abonentin yaşayış ünvanı;
- Xidmət göstərilən şəxslərin sayı;
- Göstərilən xidmətin növü;
- Sayğacın tipi;
- Hesabat ili və ayı;
- Son 12 ay üzrə faktura sərfiyyatı;
- Son 12 ay üzrə faktura məbləği;
- Son 12 ay üzrə ödənilmiş məbləğ.

Qeyd edək ki, hazırda Səhmdar Cəmiyyət tərəfindən 11 növdə elektron xidmət təqdim olunur. 2017-ci ilin yanvar-sentyabr aylarında vətəndaşlar tərəfindən müxtəlif məsələlərlə bağlı 215360 dəfə elektron qaydada müraciət edilib. Təkcə sentyabr ayında "Azərsu" ASC-nin elektron xidmətlərinə 28 mindən çox müraciət qeydə alınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,9 dəfə çoxdur.

BMT-nin Davamlı İnkişaf Məqsədləri çərçivəsində beynəlxalq konfransa hazırlıq

24-25 noyabr 2017-ci il tarixlərində Bakı şəhərində BMT-nin Davamlı İnkişaf Məqsədləri çərçivəsində "Dünyamızın transformasiyası: Davamlı İnkişaf Məqsədlərinin inteqrasiyası və həyata keçirilməsinin təşviqində elmin rolu" adlı beynəlxalq elmi konfrans keçiriləcək. Konfrans Qlobal Saziş Azərbaycan Şəbəkəsi, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə baş tutacaq.

Konfransda universitetlər, hökumətlər, şəhərlər və dövlət qurumlarının davamlı inkişaf məqsədləri ilə məşğul olan milli və beynəlxalq mütəxəssisləri iştirak edəcəklər. İki gün ərzində tədbir iştirakçıları Davamlı İnkişaf Məqsədlərilə bağlı qarşıya çıxan problemləri müzakirə edəcək, ideyalar, təcrübələr və gözləntilər ətrafında fikir mübadiləsi aparacaqlar. Müzakirələr zamanı elmi inkişaf, yerli və qlobal səviyyədə qarşılıqlı münasibətlərə xüsusi diqqət yetiriləcəkdir.

Qlobal Məqsədlər kimi tanınan Davamlı İnkişaf Məqsədləri yoxsulluğun aradan qaldırılması, planetin qorunması, bütün insanların sülh və firavanlıq şəraitində yaşamasını təmin etmək üçün həyata keçirilən universal çağırışdır. İqlim dəyişikliyi, iqtisadi bərabərsizlik, yenilik, sülh və ədaləti əhatə edən bu məqsədlər gələcək nəsillərə davamlı həyatın yaxşılaşdırılması üçün doğru seçimlər etməyə imkan yaradır. Həmçinin ölkələrin prioritetlərinə və dünyanın ekoloji problemlərinə uyğun hədəfləri müəyyənləşdirir.

"Azərsu" ASC "Məzun-2017" əmək yarmarkasında

Azərbaycan Dövlət İqtisad Universitetində əmək yarmarkası keçirilib. Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Dövlət İqtisad Universitetinin birgə təşkilatçılığı ilə keçirilən "Məzun-2017" yarmarkasında "Azərsu" Açıq Səhmdar Cəmiyyəti də iştirak edib. Yarmarkada "Azərsu" ASC-nin xüsusi stendi quraşdırılıb.

Stendlə maraqlanan tələbə və məzunlara Səhmdar Cəmiyyətin fəaliyyəti, kadr potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən proqramlar, karyera imkanları barədə məlumat verilib, işə qəbulla bağlı 200-dək müraciət anketi toplanıb.

Yarmarkanın gedişində təhsil nazirinin müavini Firudin Qurbanov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Mətin Kərimli və Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradovla görüş keçirilib, iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

Qeyd edək ki, 13 xarici və 4 yerli şirkətin təmsil olunduğu "Məzun-2017" əmək yarmarkasında "Azərsu" ASC İşlər idarəsinin İnsan resursları şöbəsinin əməkdaşları ilə təmsil olunub.

Yarmarka təhsil seçimi, təcrübə və ixtisasartırma, işaxtaranlarla birbaşa təmas yaratmaq, onları müvafiq sahələrə istiqamətləndirmək, peşəkar mütəxəssisləri cəlb etmək və məşğulluğun təmin edilməsi baxımından əhəmiyyət daşıyır.